# Ənvər Çingizoğluna kiçik bir məktub

*Əzizim Ənvər Çingizoğlu! Az qala iki əsrə yaxın zamanın o üzündə qalmış Qarabağın adlı-sanlı kişiləri haqqında üzə çıxardığın bu müxtəsər qeydlər, əslində, bu gün Qarabağ uğrunda savaşın özü deməkdir. Nəsillərarası varislik əlaqələrinin bərpası üçün sənin min bir əziyyətlə arxiv ümmanlarından tapıb gətirdiyin bu incilərin çox böyük rolu var.*

*Tarixi elə ona görə öyrənirlər ki, gələcək haqqında ibrət dərsləri götürülsün. İnsanlar həqiqəti həmişə tutiya kimi qarşılayırlar. Sənin necə bir çətinliklə arxivlərdə işləməyini təsəvvür edirəm. Doğrusunu desək, bu gün tədqiqatçılar arxivlərdə işləməyə o qədər də meyilli deyillər. Çünki bu, çox əziyyətli işdir, hətta deyərdim ki, səhhət üçün təhlükəlidir. Bu mənada sənin xidmətlərin əsl fədakarlıqdır. Sosial şəbəkələrdə də çox fəalsan. Hər vəchlə çalışırsan ki, yerindən-yurdundan didərgin olmuş qarabağlılar tarixlərinə güvəncli olsunlar, özlərini tanıya bilsinlər. Düşünürəm ki, Qarabağı qaytarmaq yolunda çarpışmalarında sənin cəmiyyətə verdiyin bilgilərin də yeri həmişə bilinəcək, unudulmayacaq.*

*Bir vaxt Diri dağının ətəyində böyümüş, min bir çətinliklə təhsil almağın əziyyətlərinə qatlaşmış illər öncə gördüyüm gənc bu gün xalqımız tərəfindən yaxşı tanınan və hər yerdə sözünün nüfuzu etiraf olunan Ənvər Çingizoğlu dövrümüzün məşhur etnoqrafı, tarixçisi, şairi, yazıçısıdır.*

*Sözünü zamanında demiş insanları tarix heç vaxt unutmur. Sənə uğurlar.*

*Ə.R.Xələfli*

kredo.2019.11 yanvar.s.16.